

# Mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq təşəbbüslərə göstərdiyi dəstək sayəsində ölkəmiz dünyanın mədəniyyət və sivilizasiyalararası dialoq mərkəzinə çevrilib. Müxtəlif mədəniyyətlərə və dinlərə hörmət əsrlər boyu xalqımızın həyat amalı olub. Azərbaycanın mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair böyük beynəlxalq tədbirlərə evsahibliyi etməsi artıq ənənə şəklini alıb. Bu ənənənin həm coğrafi, həm tarixi, həm də mədəni əsasları var. İlk növbədə ona görə ki, ölkəmizdə dinindən irqi mənsubiyyətindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələri əsrlər boyu bir ailə kimi mehribancasına yaşayırlar.**

Azərbaycanın həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu olan regionların hüdudlarından çıxararaq, daha qlobal səviyyəyə yüksəltməyə imkan verdi. Bu baxımdan "Mədəniyyətlərarası dialoqa dair Bakı Prosesi"nin davamı kimi, Prezident İlham Əliyevin dəstəyi ilə 2011-ci ilin aprelində Azərbaycan paytaxtında "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nun keçirilməsi təşəbbüsü irəli sürüldü. Dövlət başçısı xarici tərəfdaşların və tədbir iştirakçılarının müraciətləri, ölkəmizin bu sahədə davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə forumun hər ikiildənbir keçirilməsi ilə əlaqədar fərman imzaladı.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində həmişə bu sahəyə xüsusi diqqət olduğunu vurğulayaraq demişdir: "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə evsahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq".

Dünyada etimadsızlıq mühitinin formalaşdığı zamanda Azərbaycan tolerantlıq nümunəsi göstərir, multikulturalizmi həyat normasına çevirir. Müxtəlif din və mədəniyyətlərin daşıyıcıları ölkəmizdə qarşılıqlı anlaşma əsasında, bir-birinə hörmət şəraitində yaşayırlar. Bu, müxtəlif mədəniyyətlərin qovuşmasının deyil, həm də toqquşmasının arzusunda olanlar üçün ciddi nümunədir. Azərbaycan Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, multikulturalizmin müasir dünyada alternativi yoxdur: "...Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

2015-ci il mayın 18-19-da "Bakı prosesi" çərçivəsində Azərbaycanın paytaxtı yenidən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdi. Forumda bir daha təsdiq olundu ki, "Bakı prosesi" Azərbaycan Prezidenti İlham Əliyevin dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən platforma, eləcə də layihələri birləşdirən qlobal və xoşməramlı çağırışıdır. Bu həm də dünyada milli, irqi, dini və mədəni ziddiyyətlərin daha da artdığı, ekstremist düşüncə tərzinin genişləndiyi bir dövrdə Azərbaycanın multikultural resurslarının, tarixən malik olduğumuz mehriban birgəyaşayış ənənələrinin beynəlxalq səviyyədə model kimi istifadə olunması deməkdir.

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq, BMT Sivilizasiyalar Alyansının Qlobal və Bakı Beynəlxalq Humanitar forumlarında 180-dən çox ölkədən və 40-dan artıq beynəlxalq təşkilatdan nümayəndələr təmsil olunub. Bu tədbirlərdə ümumilikdə 20 mindən çox xarici nümayəndə, dövlət və hökumət rəsmiləri, beynəlxalq qurumların rəhbərləri, diplomatlar, mədəniyyət, təhsil və elm xadimləri, qlobal biznes və media strukturlarının təmsilçiləri, gənclər iştirak ediblər.

Müstəqil dövlət kimi Azərbaycanın belə mühüm tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəsini verdiyini diqqətə çatdıran Prezident İlham Əliyev demişdir: "2018-ci ildə "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik və bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. Yüzdən çox dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir".

Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamafobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı göz qabağındadır. Eləcə də miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycanın dövlət başçısı qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında birləşməyə yönələn çağırışları ilə həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Bu gün Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzimlənməsi dünya üçün nümunədir. Nüfuzlu beynəlxalq qurumların öz tədbirlərini respublikamızda keçirməsi ölkəmizin Avropa mədəniyyəti ilə islam mədəniyyəti arasında körpü rolunu oynadığını bir daha təsdiqləyir.

Mədəniyyətlərarası və sivilizasiyalararası məkana çevrilən Azərbaycan bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi altında dünyada sülhün, əmin-amanlığın qorunmasına, xalqlararası dialoqların daha da inkişaf etdirilməsinə yeni töhfələr verəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 30 dekabr (№287).- S.15.